# 2. Proqram Əlaqələndiricilərinin Bələdçisi



THE MINISTRY OF YOUTH AND SPORT
OF THE REPUBLIC OF AZERBAIJAN

unicef

## BLS üzrə onlayn təlim proqramının hazırlanması, həyata keçirilməsi və izlənməsi

Bu bələdçi yeniyetmə və gənclər üçün BLS üzrə onlayn proqramı hazırlayacaq, idarə və monitorinq edəcək və dəstəkləyəcək proqram əlaqələndiriciləri üçün nəzərdə tutulub. Proqram əlaqələndiricisi UNICEF-in proqram üzrə mütəxəssisindən və ya müşavirindən, yaxud da əlaqədar hökumət təşkilatının və ya QHT-nin əməkdaşından ibarət ola bilər. Müvafiq ölkə kontekstində yeniyetmələrin vəziyyətinə, ehtiyaclarına və prioritetlərinə uyğunlaşdırılmış interaktiv video- və "chat" platformalarından istifadə etməklə rəqəmsal şəkildə və onlayn formatda həyata keçirilən BLS üzrə proqramın planlaşdırılması və nəzarətdə saxlanmasına dair tövsiyələr bu bələdçidə proqram əlaqələndiricisi üçün təklif olunur.

Proqram Əlaqələndiricilərinin Bələdçisində nəzərdə tutulan addımlar 2020-ci ilin aprel-may aylarında UNICEF-in Azərbaycandakı Nümayəndəliyinin Yeniyetmə və Gənclərlə İş üzrə Şöbəsi tərəfindən hazırlanaraq həyata keçirilmiş BLS üzrə onlayn proqramın formatından irəli gəlir. Həmin proqram çərçivəsində iki fasilitator interaktiv video- və "chat" platformaları qismində "Zoom" və "Facebook"dan istifadə etməklə yeniyetmələr (və digər yaşlarda olan iştirakçılar) üçün BLS üzrə altı təlim sessiyasını həftədə bir dəfə keçirirdilər. Belə bir format bir çox cəhətdən səmərəli, effektiv və əlverişli oldu. Bununla belə, müvafiq materiallar fərqli şəkildə strukturlaşdırılmış BLS üzrə onlayn proqrama uyğunlaşdırılaraq istifadə edilə bilər və bununla bağlı [3]-cü səhifədə verilmiş cədvəldə baxılması üçün bir neçə alternativ variant təklif olunur.

## 1. Resurslardan istifadə

BLS üzrə onlayn təlim zərfi əksər UNICEF nümayəndəliklərinin fövqəladə hallar və humanitar cavab tədbirləri üzrə proqramları üçün nəzərdə tutulmuş resurslarına uyğun minimum maliyyə vəsaitləri tələb edən proqramın sürətlə həyata keçirilməsi məqsədi ilə hazırlanıb. Proqramın uğurla həyata keçirilməsi üçün hazır olduğunuza və tələb olunan konkret insan, texnoloji, maliyyə və başqa resurslara malik olduğunuza əmin olmaq üçün bu bələdçiyə əməl edin.

### Maliyyə vəsaitləri

Artıq mövcud olan insan resurslarından, texnologiyalardan, avadanlıqlardan və əməkdaşlıq sazişlərindən asılı olaraq aşağıdakı şəxslər üçün maliyyə vəsaitləri tələb oluna bilər:

- Proqramın kontekstinə uyğun ehtiyaclara əsasən fasilitatorların ssenarisini və (və ya) [müvafiq] təqdimatı mövcud şəraitə uyğunlaşdıra, nəzərdən keçirə və ya tərcümə edə biləcək konsultant, podratçı və ya tərəfdaş təşkilat;
- Yeniyetmə və gənclər üçün təlim sessiyalarını hazırlayacaq və aparacaq iki fasilitator.

## İnsan resursları

**Proqram əlaqələndiricisi:** Proqram əlaqələndiricisi BLS üzrə onlayn proqramın icrası prosesinin planlaşdırılmasına, birbaşa monitorinqinə və dəstəklənməsinə, habelə əhatə dairəsinə və təsirinə aid sənədlərin toplanılmasına hazırlaşmalıdır. O, şəxsi iş planında və ya bu vəzifələrin icrasını həvalə etdiyi işçi heyət üzvünün iş planında bunun üçün vaxt ayırmalıdır.

**İki fasilitator:** Yeniyetmələr üçün BLS üzrə sessiyaları onlayn formatda aparmaq məqsədi ilə ən azı iki fasilitatordan ibarət qrup işə cəlb edilməli və dəstəklənməlidir.

Çoxsaylı fasilitatorların müxtəlif məktəblərdə, mərkəzlərdə və başqa müəssisələrdə fərdi qaydada işləməsini nəzərdə tutan əyani təlim proqramlarından fərqli olaraq BLS üzrə onlayn proqramın böyük sayda iştirakçılarla eyni vaxtda ünsiyyətdə ola biləcək iki fasilitator tərəfindən aparılması mütləqdir. Bu bələdçinin növbəti bölmələrindən birində təcrübəli fasilitatorun hansı keyfiyyətlərə malik olması ilə bağlı bir sıra tövsiyələr verilir.

**Texniki dəstək:** İnformasiya texnologiyaları (İT) üzrə mütəxəssis interaktiv videokonfransın hazırlanmasına kömək etməlidir və yarana biləcək istənilən problemləri və texniki çətinlikləri aradan qaldırmaq üçün hər zaman əlçatan və hazır olaraq videosessiyaları nəzarətdə saxlamalıdır.

## Rəqəmsal texnologiyalar, platformalar və avadanlıqlar

Yuxarıda təsvir olunduğu kimi BLS üzrə onlayn zərf iki fasilitator tərəfindən "Zoom", "WebEx" və ya "Facebook" kimi interaktiv rəqəmsal platformalardan istifadə etməklə aparılan altı sessiyadan ibarət onlayn təlim proqramı üçün nəzərdə tutulub. Seçəcəyiniz platforma:

- ☑ (iki fərqli yerdən işləməsi mümkün olan) iki fasilitator tərəfindən birbaşa video- və audioyayımın aparılmasını təmin etməlidir;
- ☑ "PowerPoint" prezentasiyalarına oxşar animasiyaların və vizual təqdimatların nümayiş etdirilməsinə imkan verməlidir;
- ☑ bütün iştirakçıların istifadə edə biləcəyi "chat" funksiyasına malik olmalıdır;
- ☑ dəvət olunmamış "iştirakçılar" və ya bədəməl insanlar tərəfindən sessiyaların işini pozmağa mane olan təhlükəsizlik xüsusiyyətlərinə, məsələn qoruyucu parola malik olmalıdır; və
- ☑ əhatə etmək istədiyiniz sayda iştirakçı üçün əlçatan olmalıdır.

Sessiyaların yayımı üçün (adətən standart ofis resurslarından ibarət) aşağıdakı avadanlıqlar və xidmətlər tələb olunacaq:

- ☑ nəzərdə tutulmuş sayda iştirakçıların hamısını əhatə etmək məqsədi ilə müvafiq videokonfransın təşkili və yayımlanması üçün adekvat ötürücü gücə malik rabitə xətləri; və
- ☑ videokameralarla və mikrofonlarla təchiz olunmuş ən azı iki kompüter (hər fasilitator üçün bir kompüter).

### Maliyyə vəsaitləri

Artıq mövcud olan insan resurslarından, texnologiyalardan, avadanlıqlardan və əməkdaşlıq sazişlərindən asılı olaraq aşağıdakı şəxslər üçün əlavə maliyyə vəsaitləri tələb oluna bilər:

- Proqramın kontekstinə uyğun ehtiyaclara əsasən fasilitatorların ssenarisini və (və ya) vizual təqdimatları mövcud şəraitə uyğunlaşdıra, nəzərdən keçirə və ya tərcümə edə biləcək konsultant, podratçı və ya tərəfdaş təşkilat; və (və ya)
- Yeniyetmə və gənclər üçün təlim sessiyalarını hazırlayacaq və aparacaq iki fasilitator.

## 2. Planlaşdırma və materialların uyğunlaşdırılması

Bu alətlər dəstində verilmiş materialları kontekstinizə tələb olunan qaydada uyğunlaşdıraraq yeniyetmə və gənclərin konkret ehtiyaclarını və prioritetlərini nəzərə alacaq BLS üzrə onlayn proqrama aid müvafiq planların hazırlanması üçün aşağıdakı addımları atın:

### BLS üzrə onlayn zərfi proqram məqsədlərinizə uyğunlaşdırın

BLS üzrə onlayn alətlər dəsti humanitar cavab tədbirlərinə dair strategiya çərçivəsində yeniyetmələr üçün yeni proqramın hairlanmasında sizə kömək edə bilər. Siz “evdə qal” göstərişi səbəbindən icrası dayandırılmış mövcud, əyani təlim, həyat bacarıqları və ya psixososial dəstək proqramlarını onlayn platformalar vasitəsi ilə həyata keçirmək üçün də bu resursları uyğunlaşdıraraq istifadə edə bilərsiniz.

Birinci addım kimi, yaranmış vəziyyətə cavab olaraq BLS üzrə onlayn proqramın digər mövcud proqramlarınıza və (və ya) təşəbbüslərinizə uyğunlaşdırılması yolları barədə düşünmək üçün bu alətlər dəstini nəzərdən keçirin.

### BLS üzrə onlayn proqram: alternativ kanallar, iş qrafikləri və asanlaşdırıcı yanaşmalar

Bu Əlaqələndiricilərin Bələdçisi 2020-ci ilin aprel-may aylarında UNICEF-in Azərbaycandakı Nümayəndəliyi tərəfindən həyata keçirilmiş BLS üzrə əsas proqramla eyni şəkildə strukturlaşdırılmış BLS üzrə onlayn proqramın planlaşdırılması və aparılması üçün nəzərdə tutulan addımları özündə əks etdirir. Həmin onlayn proqram çərçivəsində iki fasilitator “Zoom” və “Facebook” platformalarından istifadə etməklə 5 000 nəfərdən çox iştirakçı üçün altı interaktiv videosessiyanı həftədə bir dəfə keçirirdi.

## BLS üzrə onlayn proqram: Alternativ proqram strukturları

Qarşınızda duran məqsədlərdən və mövcud resurslardan asılı olaraq siz bu proqramın strukturlaşdırılması üçün başqa yolları nəzərdən keçirmək niyyətində ola bilərsiniz. Təklif olunan bir neçə variant aşağıdakılardan ibarətdir.

- ☑ Bütün proqram boyu qrupların davamiyyətini ardıcıl şəkildə təmin etmək üçün daha çox sayda fasilitatoru işə cəlb edin və iştirakçıları nisbətən kiçik qruplara bölün. Sayı 20 nəfərdən çox olmayan iştirakçı üçün 1 fasilitator nisbətinə əməl olunduqda, iştirakçılar öz yaşıdlarını tanımaq, şəxsi ideyaları bölüşmək və fasilitatorun rəy və dəstəyini əldə etmək üçün daha çox imkana malik ola bilərlər.
- ☑ Gənclərin internetə çıxışı olmadıqda, sessiyaları keçirmək üçün radio və ya televiziyadan istifadə edin. Rəqəmsal platformalar qarşılıqlı əlaqə üçün daha çox imkan təklif etsələr də, bəzi hallarda xüsusi ilə daha marginal və həssas qruplardan olan gənclərin əhatə edilməsi baxımından digər media kanalları ən yaxşı variant ola bilər.
- ☑ Sessiyaların keçirilməsi və (və ya) gənclərlə informasiya mübadiləsi üçün “WhatsApp”dan və ya başqa mesajlaşma tətbiqindən istifadə edin. Yenə də, seçdiyiniz platforma müvafiq şəraitlərdə ən əlçatan kanaldan ibarət olmalıdır
- ☑ (Hamısı olmasa da) bəzi gənclərin əyani sessiyalarda iştirakı təhlükəsiz və münasib olduqda, sessiyaların keçirilməsi üçün “hibrid” yanaşmanı nəzərdən keçirin. Belə ki, facilitatorlar bir neçə iştirakçı üçün əyani şəkildə keçirdiyi sessiyaları digər, onlayn iştirakçılar üçün interaktiv platformalar vasitəsi ilə birbaşa yayımlaya bilərlər.
- ☑ Consider a “hybrid” approach to facilitating sessions if it is safe and feasible for some (but not all) young people to participate in face-to-face sessions. For example, facilitators could lead in-person sessions with a few youth participants, simultaneously broadcasting those sessions to others who participate remotely via interactive platforms.

### BLS üzrə Fasilitatorun Təlimat Kitabçasını və Tələbənin İş Kitabını nəzərdən keçirin.

BLS üzrə alətlər dəsti Azərbaycanda əyani təlim proqramları üçün istifadə edilmiş BLS zərfindəki təlim-tədris materiallarını mövcud şəraitə uyğunladırmaqla hazırlanıb.

Həmin zərfdə verilmiş BLS üzrə Fasilitatorun Təlimat Kitabçasını və Tələbənin İş Kitabını nəzərdən keçirməklə bu alətlər dəstində nəzərdə tutulmuş BLS üzrə terminlər, təlim yanaşmları və məqsədlər barədə anlayışınızı inkişaf etdirin. Siz belə bir addım atmaqla BLS üzrə onlayn proqramın yerli kontekstə uyğunlaşdırılması üçün əlavə variantları nəzərdən keçirmək və formalaşdırmaq imkanı əldə edəcəksiniz. Siz həmin materiallarla tanış olduqda, “evdə qal” tələbi ləğv olunqudan sonra BLS üzrə əsas (əyani) təlim proqramını da həyata keçirməyə hazır olacaqsınız, əgər şərait buna imkan verərsə.

## Proqramın hədəf benefisiarlarını müəyyən edin

BLS üzrə onlayn təlim proqramı sayəsində hansı yeniyetmə və gənclərin əhatə olunması və cəlb edilməsi ilə bağlı məqsədiniz barədə qərar qəbul edin. Buna aid bir neçə tövsiyə aşağıdakılardan ibarətdir:

- Yaş: BLS üzrə (həm əsas, həm də onlayn) təlim proqramları 15-24 yaş arasında olan yeniyetmə və gənclər üçün nəzərdə tutulub. Azərbaycanda BLS üzrə onlayn proqram (əsasən orta təhsil və peşə təhsili müəssislərində təhsil alan) 15-19 yaş arasında olan yeniyetmə və gəncləri birabaşa əhatə etmək üçün hazırlanıb. Bununla belə, bu proqram istənilən yaşda şəxslərin iştirakı üçün açıqdır və əldə olunmuş maraqlı fakt ondan ibarətdir ki, proqram iştirakçılarının təxminən 45%-i yaşı 20-dən yuxarı olan şəxslər təşkil edirdi. Əhatə etmək istədiyiniz yaş qrupunu müəyyən edin. Proqramın digər yaş qruplarına aid olan şəxslərin iştirakı üçün açıq olub-omayacağı barədə qərar qəbul edin.
- İştirakçıların ümumi sayı: Əgər siz bu proqramı bir və ya iki fasilitator tərəfindən mərkəzləşdirilmiş qaydada yayımlanmasını planlaşdırırsınızsa, olduqca çoxlu sayda iştirakçını əhatə etmək imkanına malik ola bilərsiniz. Təqdim olunan proqramda iştirak edə biləcək insanların sayı müvafiq kontekstdə istifadə edə biləcəyiniz videoyayım platformasının parmetrlərindən və "WiFi"-ın gücündən də asılı olacaq.
- Gənclərdən ibarət xüsusi qruplar: Gənclərdən ibarət xüsusi qrupların, məsələn cəlb edilməsi çətin olan marginal və həssas qrupların da proqramla əhatə olunub-olunmayacağını nəzərdən keçirin.

## Seçilmiş hədəf benefisiarlar qrupunun rəqəmsal texnologiyalara çıxış imkanlarını qiymətləndirin

Siz hədəf benefisiarların rəqəmsal məlumatlara və (və ya) "WiFi"-ya cıxış üçün hansı cihazlardan istifadə etdiyini, hansı imkanlara malik olduğunu və hansı məhdudiyyətlərlə üzləşdiyini daha yaxşı başa düşdükdə, istifadə edə biləcəyiniz interaktiv videoplatformaları və başqa tətbiqləri müvafiq qaydada seçə biləcəksiniz.

- Yerli şəraitdə gənclərin artıq çıxışı olan və adətən istifadə etdiyi platformadan istifadə məsələsini nəzərdən keçirin (bu platforma zəruri funksiyalara və xüsusiyyətlərə, o cümlədən video- və audioyayım imkanlarına və "chat" sisteminə malikdirmi?).
- Yerli şəraitdə, xüsusilə konkret platformalarla əlaqəli səciyyəvi məxfilik problemlərini və təhlükəsizlik risklərini qiymətləndirin, məsələn:
- iştirakçıların şəxsi məlumatlarının təhlükəyə məruz qalma və ya üçüncü bir şəxs tərəfindən istifadə olunma riski yaratmayacaq bir platforma seçin;
- kənar şəxslərin hücumlarına və ya başqa cür müdaxilələrinə həssas olmayan və (və ya) tərəfinizdən yaradılacaq qoruyucu parol kimi təhlükəsizlik tədbirləri ilə müdafiəsi mümkün olan platformaları müəyyən və istifadə edin.

**Gənclərin gündəlik iş qrafikini qiymətləndirin və iştirak üçün nə vaxt mövcud və hazır olmalarını nəzərə alaraq BLS üzrə onlayn təlim sessiyalarının vaxtını və müddətini seçin və planlaşdırın.**

Bununla bağlı bir neçə konkret tövsiyə aşağıdakılardan ibarətdir:

- ☑ BLS üzrə təlim sessiyalarını həftənin konkret bir günü və eyni vaxtda keçirin ki, iştirakçılar həmin günü və vaxtı yadda saxlayıb sessiyalara asanlıqla qoşula bilsinlər.
- ☑ Təlim sessiyalarını həftədə yalnız bir və ya (maksimum) iki dəfə keçirin ki, iştirakçılar öyrəndikləri yeni bacarıqlar barədə düşünmək və onları təcrübədə tətbiq etmək üçün sessiyalararası imkanlara malik olsunlar.

**Təcrübəli fasilitatorları cəlb edin və planlaşdırma mərhələsində onlarla əməkdaşlıq edin**

Bununla bağlı tövsiyə bu sahədə ekspert və təcrübəli müəllim, mütəxəssis və ya təlimçi olan iki fasilitatorun cəlb edilməsini nəzərdə tutur. Əgər sizin fasilitatorlar bu cür bilik və təcrübəyə malikdirlərsə, onlara minimal səviyyədə əlavə təlim tələb olunacaq ki, bu da proqramın tez bir vaxtda həyata keçirilməsi üçün hazırlıq dövründə vaxt və resursların qənaətinə şərait yaradacaq. Eyni zamanda, bu cür fasilitatorlar müvafiq ssenariləri və sessiyaları gənclər üçün daha münasib etmək məqsədi ilə təklif olunan təlim strategiyalarının yerli şəraitə uyğunlaşdırılması və təkmilləşdirilməsinə dair dəyərli tövsiyələr verə bilərlər.

Azərbaycanda müvafiq proqram bütün iştirakçılar üçün onlayn sessiyalar aparan cəmi iki fasilitator tərəfindən həyata keçirilib. Onlardan biri sessiyanı aparmaq üçün ssenaridə göstərilmiş əsas məqamları oxumaqla, əlavə suallar və şərhlər verməklə aparıcı fasilitator rolunu oynayırdı. İkinci fasilitator isə iştirakçıların "chat" vasitəsi ilə verdiyi töhfələri monitorinq etməklə, maraq doğuran şərhlərə və ya töhfələrə aparıcı fasilitatorun diqqətini cəlb etməklə, iştirakçıları töhvə verməyə dəvət etməklə və ya aparıcı fasilitatorla birlikdə rol oyunlarında iştirak etməklə moderator funksiyasını yerinə yetirirdi. Azərbaycanda proqramın qiymətləndirilməsi zamanı iki fasilitatordan ibarət proqram stukturu müsbət hesab olunub və tətbiq etmək üçün bir tövsiyə kimi təklif oluna bilər. Həmin qiymətləndirmədən irəli gələn başqa bir təklif iki fasilitatorun rollarını növbə ilə dəyişməklə sessiyalara müxtəliflik qatmağı və müəyyən tarazlıq əlavə etməyi nəzərdə tutur.

## Fasilitatorlar üçün tövsiyə olunan keyfiyyətlər:

- ☑ Gənclərin inkişafı, təhsil və ya psixologiya sahəsində, xüsusən də yeniyetmə və gənclərin inkişafı və (və ya) həyat bacarıqları üzrə təlimlərin keçirilməsi ilə əlaqəli sahələrdə elmi dərəcə;
- ☑ Gənclərlə işləyən müəllim, mütəxəssis və ya fasilitator və (və yaxud) müəllimlərin, yaxud da fasilitatorların təlimçisi qismində iş stajı;
- ☑ Şagird və ya gənclər yönümlü tədris metodlarından istifadə etməklə təlim keçirmə təcrübəsi;
- ☑ Rəqəmsal platformalarda onlayn dərslər və ya sessiyalar keçirmə təcrübəsi, əgər bu mümkündürsə;
- ☑ Onlayn təlim üçün yeni rəqəmsal texnologiyalardan istifadədə çeviklik, uyğunluq və maraq.

## Fasilitatorları hazırlayın

**Bununla bağlı bir neçə konkret tövsiyə aşağıdakılardan ibarətdir:**

- ☑ Fasilitatorları sessiyaların ssenariləri ilə və təqdimatlarla əvvəlcədən təmin edin ki, onlar münasib hesab etdiyi şəxsi qeydlərini əlavə etməklə bu materialları nəzərdən keçirə və təkrarlaya bilsinlər.
- ☑ Fasilitatorların əsas anlayışlar barədə biliklərini gücləndirmək və əsas terminlərdən ardıcıl və dəqiq istifadəsini təmin etmək məqsədi ilə onlara BLS üzrə Fasilitatorun Təlimat Kitabçasını və İzahlı Lüğəti oxumağı təklif edin (və ya bunu onlardan tələb edin). Fasilitatorlar həyat bacarıqları üzrə təlimə, o cümlədən psixologiya mövzusunda və ya sosial-emosional təlimlərə aid mövzular barədə müəyyən bilik və təcrübəyə malik olsalar da, belə bir addım xüsusilə əhəmiyyətlidir, çünki onlar eyni terminlərin başqa kontekstlərdə fərqli şəkildə tərtib və ya tərcümə edilməsi problemi ilə üzləşə bilərlər.
- ☑ Proqrama aid planları təfərrüatı ilə müzakirə etmək üçün fasilitatorlarla görüş keçirin. Bu sahədə zəngin təcrübəyə malik olan fasilitatorlar üçün hazırlıq təlimi tələb olunmasa da, birgə hazırlıq görüşünün və ya seminarının keçirilməsi sizə müvafiq yanaşmaların və yaxud materialların uyğunlaşdırılması ilə bağlı ümumi razılığa gəlmək və planları yekunlaşdırmaq imkanı verəcək. Sizin iş qrafikinizə uyğun olduqda, bu cür görüşü aşağıda tövsiyə olunan hazırlıq sessiyası ilə birləşdirin.

## Gəncləri və onlara dəstək verən yetkin şəxsləri həyata keçiriləcək BLS üzrə onlayn təlim proqramı barədə məlumatlandırın və bu proqramla əhatə edin

**Bununla bağlı bir neçə konkret tövsiyə aşağıdakılardan ibarətdir:**

- ☑ Proqramın cəlbedici və gərəkli olduğunu, eləcə də gündəlik stresdən dincəlmək üçün nəzərdə tutulduğunu vurğulamaqla məqsədini və faydasını gənclərə izah edərkən onlar üçün münasib dildən yerli şəraitə uyğun istifadə edin.
- ☑ Onlayn sessiyalarda nə vaxt və nə cür iştirak etməyin yolları barədə onlara məlumat verin.
- ☑ Təlimə birinci sessiyadan sonra qoşulmuş, eləcə də yaşı nisbətən çox və ya az olan iştirakçıları salamlayın.
- ☑ Proqram haqqında informasiyanı paylamaq üçün onların artıq istifadə etdiyi platformalardan və tətbiqlərdən istifadə edin (bura "WhatsApp", "Instagram" və digər tətbiqlər və platformalar daxildir).
- ☑ İştirakçıların Bələdçisindən və Valideynlərin Bələdçisindən yerli şəraitə uyğun istifadə edin, tələb olunduqda isə onları yerli şəraitə uyğunlaşdırın. Nəzərə alın ki, bu iki resurs materialı şablon formada hazırlandığından siz bu materiallara əlavə və düzəlişlər edə və onların dilini dəyişə bilərsiniz.

## Hazırlıq sessiyasını keçirin

Planlaşdırdığınız BLS üzrə onlayn təlim proqramını ilk dəfə həyata keçirməzdən əvvəl iki fasilitatorun iştirakı və (ideal şəraitdə) İT üzrə mütəxəssisin dəstəyi ilə hazırlıq sessiyasını təşkil edin və bir və yaxud iki həmkarınızı bu sessiyaya könüllü şəkildə iştirakçı kimi cəlb edin.

Videokameradan, mikrofondan və onlayn platformadan sərbəst və hazırlıqlı şəkildə istifadə etmək, ssenarilərə və təqdimatlara vaxtında keçid almaq, "chat"ı monitorinq etmək və sualları cavablandırmaq üçün fasilitatorların məşq etməsi və özünü sərbəst və hazırlıqlı hiss etməsi üçün vaxt ayırın, çünki onlar bütün bunları sessiya zamanı etməli olacaqlar.

## 3. Proqramın dəstəklənməsi və monitorinqi

BLS üzrə onlayn təlim proqramını həyata keçirməyə başladıqda, onu əlaqələndirmək, monitorinq etmək, dəstəkləmək və yaranan problemləri həll etmək üçün aşağıdakı addımları atın:

### BLS üzrə onlayn təlim sessiyasının hər birini bütövlükdə müşahidə edin

**Bunu etmək üçün bir neçə konkret təklif aşağıdakılardan ibarətdir:**

- [x] Düzəlişlərin tələb olunduğunu hesab etdikdə proqrama aid planları fasilitatorlarla birlikdə mövcud şəraitə uyğunlaşdırmağa və tənzimləməyə hazır olun. Siz ilk sessiyalar zamanı əldə olunmuş təcrübəni əsas götürərək növbəti sessiyaların müvafiq dəyişiklik və düzəlişlər sayəsində daha cəlbedici və səmərəli olacağı qənaətinə gələ bilərsiniz.
- [x] Zərurət yarandıqda, problemləri həll edin.
- [x] Təlim çərçivəsində çalışmalarda iştirak edən və sessiyalar zamanı "chat"da şərhlər verən gənclərin vəziyyəti və ehtiyacları barədə öyrənmək imkanından istifadə edin. BLS üzrə onlayn proqram sizə imkan verir ki, yerli şəraitdə gənclərə təsir edən problemlər, onların narahatlıqarı, ümidləri və prioritetləri barədə bilavasitə həmin şəxslərin özündən öyrənəsiniz.

### BLS üzrə onlayn təlim sessiyasının hər birinin qeydiyyatını aparın

Aparacağınız qeydlər həyata keçirilən BLS üzrə proqramı nəzərdən keçirmək və təkmilləşdirmək, onun gələcəkdə təkrarlanması üçün dəyişikliklər etmək və (və ya) hesabatvermə məqsədləri üçün resurs kimi istifadə etmək üçün tətbiq edə biləcəyiniz müvafiq proqram tədbirlərinə aid faydalı material kimi gərəkli olacaq.

- [x] Sessiyaların qeydiyyatının aparılacağını və müvafiq qeydlərin necə istifadə olunacağını iştirakçılara bildirin.
- [x] İştirakçıların toxunulmazlığını və təhlükəsizliyini qorumaq üçün sessiyalara aid bütün qeydləri məxfi şəkildə saxlayın.

### İştirakçılar və onların hər sessiyada iştirakı barədə məlumat toplayın

İştirakçıların yaşı, cinsi, təmsil etdikləri coğrafi ərazi haqqında, eləcə də əhəmiyyət kəsb edən və informativ xarakter daşıyan başqa məlumatlarla, məsələn onların təhsili, etnik mənsubiyyəti, dini haqqında məlumatlarla bağlı qeydlər aparın və onları özünüzdə saxlayın.

İmkan olduqda, bu məlumatları real vaxt rejimində, proqram icra olunduğu zaman təhlil edin. Bu, müəyyən tendensiyaları, məsələn iştirak səviyyəsinin artmasını və ya azalmasını, yaxud da gənclərdən ibarət müxtəlif qruplar arasında iştirakla bağlı fərqli tendensiyaları qiymətləndirmək üçün faydalı ola bilər.

**Hökumət təşkilatlarında və QHT-lərdə təhsil məsələləri ilə məşğul olan vəzifəli şəxsləri, habelə təhsil və müdafiə məsələləri üzrə mütəxəssisləri BLS üzrə onlayn təlim sessiyalarını müşahidə etməyə və bu sessiyalarda iştirak etməyə dəvət edin**

Əməkdaşlığın həyata keçirilməsi və zəruri dəstəyin əldə olunması üçün bir fürsət kimi digər əlaqədar şəxsləri proqramı müşahidə etməyə dəvət etmək məqsədi ilə sizin üçün sadə və rahat olan üsullardan istifadə edin. Bu cür tərəfdaşlarla birgə müşahidə etdiyiniz sessiyaları təhlil edin və onlayn proqramın daha da uğurlu olması üçün gələcək imkanları, eləcə də proqramın yeniyetmə iştirakçılar üçün müsbət amillərini və psixososial nəticələrini nəzərdən keçirin. Yerli şəraitdə "evdə qal" rejimi davam etdikdə, siz növbəti onlayn tədbirləri planlaşdıra bilərsiniz və ya gələcəkdə BLS üzrə əyani proqramları həyata keçirmək üçün planlar qura bilərsiniz.

## 4.Növbəti addımlar

**Proqramı nəzərdən keçirin, təhlil edin və (və ya) qiymətləndirin**

Ümumi tövsiyə, BLS üzrə təlim proqramı başa çatdıqdan sonra onun bir daha nəzərdən keçirilməsini, təhlil edilməsini və (və ya) qiymətləndirilməsini nəzərdə tutur. Proqramın təhlili və ya qiymətləndirilməsi üçün seçəcəyiniz format, toplayacağınız məlumatlar və aparacağınız təhlilin növü uzunmüddətli proqram məqsədlərinə nail olmaq üçün şərait yaratmalıdır.

Proqramın iştirakçısı olmuş gənclərin, həmçinin müvafiq töhfələr vermis və müşahidələr aparmış digər şəxslərin rəylərini toplamaqla bu işə başlayın. Bu istiqamətdə atacağınız addımlarla bağlı bir neçə variant aşağıdakılardan ibarətdir:

- ☑ Bilavasitə iştirakçıların rəyini toplayın. Onlayn sorğunu təşkil etmək üçün "Survey Monkey" və ya "Survey Gizmo" kimi onlayn platformaları tətbiq edərək bu alətlər dəstinin bir hissəsi olan Sorğu Anketindəki suallardan olduğu kimi və ya yerli şəraitə uyğunlaşdırıb istifadə edin.
- ☑ Fərdi müsahibələr, fokus qrupda müzakirələr və ya birgə seminarlar keçirməklə proqram üzrə bir sıra əlaqədar tərəflərlə birbaşa məsləhətləşmələr aparın. İştirakçılar, proqram heyəti, tərəfdaşlar və valideynlər əlaqədar tərəflərlə məsləhətləşmələrdə iştirak edə bilərlər. Yenə də, siz Sorğu Anketində verilmiş suallardan bu cür məsləhətləşmələr üçün olduğu kimi və ya yerli şəraitə uyğunlaşdırıb istifadə edə bilərsiniz.

**BLS üzrə onlayn (və ya əyani) təlim proqramını genişləndirmək, inkişaf etdirmək və (və ya) müvafiq təhsil müəssisələrində tətbiq etmək üçün növbəti proqram addımlarınızı planlaşdırın**

Atacağınız növbəti addımlar proqramın təhlili və qiymətləndirilməsindən irəli gələn nəticələrdən, mövcud vəziyyətin qiymətləndirilməsindən və yerli şəraitə uyğun gələn imkanlardan asılı olmalıdır.

Əgər humanitar böhran davam edərək insanları evdə qalmağa məcbur edirsə, siz yeniyetmələr üçün onlayn təlim proqramının davam etdirilməsi imkanlarını nəzərdən keçirə bilərsiniz.
Bununla bağlı bir neçə variant aşağıdakılardan ibarətdir:

- ☑ Daha çox sayda gənci əhatə etmək üçün proqramı təkrarən həyata keçirin. Proqramın əvvəlki mərhələsində yetərincə təmsil olunmamış qrupları cəlb etmək üçün daha da hədəfli səylər göstərin.

- Proqramın əvvəlki mərhələsinin iştirakçılarını növbəti mərhələni təşviq edəcək təbliğatçılar və tərəfdarlar kimi bu prosesə cəlb edin. Bu iştirakçıları bilavasitə öz yaşıdları arasında təbliğat işləri aparmağa cəlb edin, əgər bu mümkündürsə.

- Əgər yeli şəraitdə məktəblər və ya qeyri-formal təhsil proqramları ilə məşğul olan müəssisələr onlayn fəaliyyət göstərirlərsə, BLS üzrə onlayn proqramı bu cür təhsil müəssisələrində tətbiq etmək üçün əlaqədar vəzifəli şəxslərlə, xüsusən də tərəfdaşlarınızla məsləhətləşmələr aparın.

Əgər yerli şəraitdə “evdə qal” rejiminin yaxın zamanlarda ləğv olunacağı gözlənilirsə, gələcəkdə baş verə biləcək fövqəladə vəziyyətə hazır olmaq, eləcə də əyani təlim proqramını hazırlamaq üçün şəxsi təcrübənizdən və resurslarınızdan istifadə yollarını nəzərdən keçirin.
Bununla bağlı bir neçə variant aşağıdakılardan ibarətdir:

- BLS üzrə onlayn proqramı məktəblərin və ya təhsil müəssisələrinin və yaxud təhsil sistemlərinin fövqəladə vəziyyətə hazırlıq planlarına inteqrasiya edin.
- BLS üzrə əyani proqramın məktəblərdə və qeyri-formal təhsillə məşğul olan müəssisələrdə, məsələn gənclər mərkəzlərində həyata keçirilməsini planlaşdırın. Bu alətlər dəstində təklif olunan ən vacib tövsiyələrdən biri zərurət yarandıqda, əyani təlim proqramlarına hazırlaşmağı və investisiya yatırmağı nəzərdə tutur. Əyani təlim proqramları gənclərə stresdən və özünütəcriddən dincəlmək, eləcə də yaşıdları ilə sağlam, dəstəkləyici əlaqələr qurmaq imkanı verir və adətən gənclər bildirirlər ki, həyat bacarıqları üzrə və buna oxşar təlim proqramlarında iştirak etmələrinin ən böyük faydası məhz bu cür təcrübəni əldə etməkdir. Əyani təlim imkanları həyat bacarıqlarının öyrənilməsi üçün kifayət qədər səmərəli olan yeniyetmə yönümlü təlim metodları və yanaşmalarının tətbiqi üçün də əlverişlidir. Əyani proqramın tətbiqi ilə bağlı daha çox informasiya və tövsiyə əldə etmək üçün BLS üzrə Fasilitatorun Təlimat Kitabçasına və Tələbənin İş Kitabına müraciət edin.

# Əldə etdiyiniz təcrübə və nailiyyətləri bölüşün!

BLS üzrə onlayn proqram çərçivəsində əldə etdiyiniz təcrübəni UNICEF-in digər nümayəndəlikləri və tərəfdaşları ilə bölüşməyə unutmayın! Sizin nailiyyətləriniz, materiallarınız və təcrübəniz sayəsində gələcək proqramları zəruri məlumatlarla və dəstəklə təmin etmək olar.